# İNŞAATÇI KADRLAR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin qəzeti

The newspaper of Azerbaijan University of Architecture & Construction

№2(449) 28 fevral 2022-ci il www.azmiu.edu.az


## AzMİU-nun nümayəndə heyəti Ankara və Hacettepe Universitetində ezamiyyətdə olub



Fevralın 14–18-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin nümayəndə heyəti Türkiyədə ezamiyyətdə olub. Universitetin tədris işləri üzrə prorektoru Akif Qasımovun rəhbərlik etdiyi nümayəndə heyəti Ankara və Hacettepe universitetlərində səmərəli görüşlər keçirib, işgüzar danışıqlar aparıblar.

Ankara Universitetində baş tutan görüşdə Akif Qasımovla yanaşı, Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədov, həmin kafedranın müəllimləri Gülnar Feyziyeva, Mirfatma Cavadova və Aynurə Bayramova da iştirak ediblər. Onu da qeyd edək ki, ezamiyyət Ankara Universiteti, orada aparılan elmi-tədqiqat işləri ilə yaxından tanışlıq, təhsilin Avropa standartlarının kriteriyalarının daha dərindən öyrənilməsi, gələcəkdə "Elektrik və elektronika mühəndisliyi" ixtisası üzrə ikili diplom layihəsinin işlənilməsi üçün hazırlıq məqsədi daşıyırdı. Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar, rektor yardımçıları, dekan və bölüm başqanları azərbaycanlı həmkarlarını yüksək səviyyədə qəbul edib, çıxışlarda Azərbaycana xüsusi məhəbbətini vurğulayıb və xalqımızı möhtəşəm qələbə münasibətilə təbrik edib.

Görüşdə Akif Qasımov çıxış edərək AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədovanın salamlarını çatdırıb, səmimi qəbul üçün Ankara Universitetinin rəhbərliyinə, şəxsən rektora təşəkkür edib. O, Azərbaycan xalqının Vətən müharibəsində tarixi qələbəsində Türkiyənin dəstəyini xüsusi vurğulayıb. Eyni zamanda AzMİU-nun prorektoru səfərin məqsədi haqqında qısa məlumat verib, universitetlərimiz arasında əlaqələrin genişləndirilməsində maraqlı olduğumuzu görüş iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədov qəbul üçün təşəkkürünü bildirib və uyğun kafedralar arasında gələcəkdə elmi-tədqiqat işlərinin aparılması, onlayn şəkildə birgə elmi seminarların, Beynəlxalq konfransların keçirilməsinin vacibliyini qeyd edib.

Ezamiyyət zamanı müəllimlər Ankara Universitetinin elmi-texniki bazası və Texnokəndi, Mühəndislik fakültəsinin dekanlığı, Elektrik və elektronika bölümünün auditoriya və laboratoriyaları, pedaqoji kollektivi ilə tanış olub, mühazirə dərslərində iştirak edib, gələcəkdə görüləcək işlər haqqında müzakirələr aparıblar. Görüşün sonunda tərəflər bir-birinə simvolik milli hədiyyələr verib, xatirə fotoşəkilləri çəkdiriblər.

Daha sonra A.Qasımovun rəhbərlik etdiyi nümayəndə heyətinin bir qrupu Hacettepe Universitetinin prorektoru, professor Vural Gökmənlə görüşüb. Görüşdə Sənayenin təşkili və idarə edilməsi kafedrasının müdiri Ruhəngiz Əliyeva, İqtisadi nəzəriyyə və marketinq kafedrasının baş müəllimi Rumella Cəfərova, Biznesin iqtisadiyyatı və menecment kafedrasının dosenti Elşad Yusifov da iştirak ediblər. Səmimi qəbula görə Vural Gökmənə təşəkkürünü bildirən Akif Qasımov zəngin ənənələrə, müasir infrastruktura və güclü potensiala malik olan qardaş ölkənin aparıcı ali təhsil müəssisələrindən biri olan Hacettepe Universiteti ilə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb. A.Qasımov AzMİU-nun potensial inkişaf istiqamətləri və strateji hədəfləri barədə ətraflı məlumat verib, tələbə – müəllim mübadiləsi, birgə elmi konfransların təşkili, ortaq layihələrin icra edilməsi və digər sahələrdə ikitərəfli əməkdaşlıq üçün mövcud imkanların səfərbər edilməsinin önəmindən danışıb.

Hacettepe Universitetinin prorektoru, professor Vural Gökmen hər iki ali təhsil müəssisəsinin iqtisad profilli fakültələri arasında qarşılıqlı faydalı işbirliyinin potensial nəticələrinə dair fikirlərini bölüşüb. Hacettepe Universitetində davam edən görüşdə iqtisadi ixtisaslar üzrə birgə fəaliyyətin detalları müzakirə olunub.

Səfər zamanı AzMİU-nun əməkdaşları universitetin kitabxanası, İqtisadi və idari bilimlər fakültəsinin müəllimləri və tələbələri ilə də görüşüblər. İqtisadi və idari bilimlər fakültəsinin dekanı, professor Mustafa Umur Tosun həmkarlarına fakültənin tarixi haqqında məlumat verib, ən üstün keyfiyyətə malik innovativ fakültələrdən biri olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran çoxsaylı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, ilkin mərhələdə atılacaq addımlardan danışılıb.

**Media və ictimaiyyətlə əlaqələr şöbəsi.**

## AzMİU-da "Xocalı soyqırımı – qan yaddaşımız!" adlı anım tədbiri keçirilib




Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunmuş "Xocalı soyqırımı – qan yaddaşımız!" adlı tədbir keçirilib. Tədbirdə universitetin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Mərasim Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. THİK sədri Bayram Aslanov tədbiri açaraq Xocalı faciəsinin tariximizin qanlı səhifəsi olduğunu, bu dəhşətli faciənin yaddaşlardan silinməyəcəyini vurğulayıb.

Tədris işləri üzrə prorektor Akif Qasımov çıxışında Xocalı həqiqətlərinin dünyaya çatdırılması üçün gənclərin üzərinə mühüm vəzifələr düşdüyünü qeyd edib və gəncləri vətənpərvər olmağa səsləyib. Xocalı faciəsinin xalqımıza qarşı soyqırımı aktı kimi dünyada tanınması üçün Azərbaycan dövlətinin bütün zəruri addımları atdığını qeyd edən A.Qasımov Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra ölkəmizin informasiya blokadasından çıxaraq Azərbaycan həqiqətlərinin, o cümlədən, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasını yada salıb. Qeyd edib ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilib, 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib və fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunub.

Prorektor çıxışında 44 günlük Vətən müharibəsində Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuzun, qəhrəman oğullarımızın ermənilərdən Xocalı şəhidlərinin qisasını aldıqlarını, onların qanının yerdə qalmadığını da xüsusi vurğulayıb.

Çıxışlardan sonra THİK-in özfəaliyyət klubunun üzvlərinin hazırladığı Xocalı hadisələrinə həsr olunmuş videoçarx və səhnəcik nümayiş olunub.

Tədbirdə iştirak edən Xocalı faciəsinin canlı şahidi, universitetimizin əməkdaşı Nəcibə Əliyeva o gecədə gördüyü dəhşətlərdən, ermənilərin törətdiyi vəhşiliklərdən danışıb, həmin günlərin xalqımızın yaddaşında silinməz izlər qoyduğunu və heç zaman unudulmayacağını bildirib.

**Şahmar RƏFİLİ,**
**THİK-in sədr müavini.**

## Tələbələr üçün yeni dərs vəsaiti




Azərbaycan Memarlıq və İnşaat Universitetinin Bina və qurğuların istismarı və rekonstruksiyası kafedrasının dosenti, texnika üzrə fəlsəfə doktoru Fevzi Quliyevin "Bina və qurğuların müayinəsi və sınağı" adlı dərs vəsaiti çapdan çıxıb.

Kitab inşaat mühəndisliyi ixtisası üzrə mütəxəssislər hazırlayan ali məktəblərdə bakalavr və magistr səviyyələrində dərs vəsaiti kimi nəzərdə tutulub. Kitabdan, həmçinin layihələndirmə və müayinə işləri ilə məşğul olan mühəndislər də istifadə edə bilərlər.

**İlqar ƏLİYEV,**
**Bina və qurğuların istismarı və rekonstruksiyası kafedrasının müdiri.**

## AzMİU-da BP Azərbaycan Şirkətinin dəstəyi ilə 3 laboratoriya açılıb



Fevralın 24-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasında BP Azərbaycan Şirkətinin dəstəyi ilə müasir standartlara cavab verən 3 laboratoriya açılıb. Laboratoriyanın açılışında universitetin rektoru, BP Azərbaycan Şirkətindən nümayəndələr, professor-müəllim heyəti iştirak ediblər. Tədbir iştirakçıları müasir texnologiyalar və avadanlıqlarla təchiz edilmiş laboratoriya ilə tanış olublar.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova laboratoriyaların qurulmasında göstərdiyi dəstəyə görə BP Azərbaycan Şirkətinin rəhbərliyinə təşəkkür edib, yeni laboratoriyaların tədrisin məzmununun təkmilləşdirilməsi baxımından əhəmiyyətindən danışıb.

Laboratoriyanın əhəmiyyətindən danışan rektor bildirib ki, bu qurğular əmək bazarının tələblərinə cavab verən mühəndislik profili üzrə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında böyük rol oynayacaq. İxtisaslaşdırılmış laboratoriyada tələbələr nəzəri biliklərlə yanaşı, praktik biliklər də əldə edəcəklər.

BP Azərbaycan Şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli ali təhsil müəssisələri arasında öz yeri və nüfuzu olan Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə əməkdaşlıqdan məmnunluq duyduğunu dilə gətirib. O bildirib ki, BP Azərbaycan Şirkəti ölkədə təhsilin inkişafına töhfə vermək üçün təhsil sosial layihələrinin tərkib hissəsi kimi ali məktəblərdə müxtəlif istiqamətli laboratoriyalar açır. Bu layihələrin universitetlərin maddi-texniki bazasının gücləndirilməsinə xidmət etdiyini deyən B.Aslanbəyli həmçinin açılan laboratoriyaların universitetlərin tədqiqat potensialının, tələbələrin elmi-tədqiqat imkanlarının artırılmasına və ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət etdiyini vurğulayıb.

Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədov laboratoriyalar barədə məlumat verib, kiçik prezentasiya təqdim edib. O bildirib ki, "Ağıllı ev" laboratoriyası (cəmi 51 laboratoriya işi) əsasən magistr səviyyəsində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Burada onlar binaların bütün mühəndis kommunikasiya sistem və qurğularının distant idarə olunması və tənzimlənməsi, nəzarət və mühafizə sistemləri, işıqlandırmanın idarə olunması, mikroiqlim parametrlərinə nəzarət və tənzimləmə, istifadəçi ilə sistem arasında ikitərəfli rabitə, "ağıllı" elektrik cihazları və s. parametrlərin idarə olunması üçün proqram təminatının hazırlanması və həyata keçirilməsi qaydalarını öyrənəcəklər.

İkinci "Enerji effektivliyi və alternativ bərpa olunan enerji mənbələri" laboratoriyasında (cəmi 25 laboratoriya işi) tələbələr günəş kollektorları, külək generatorları, istilik nasoslarının iş prinsipi və hesablanma qaydaları, eləcə də binaların energetik müayinəsinin (auditinin) aparılma qaydaları ilə tanış olacaqlar.

"Elektrik və elektronika" laboratoriyasında (cəmi 136 laboratoriya işi) isə tələbələrə bina və yaşayış məntəqələrinin elektrik təchizatı ilə əlaqədar olan müasir hesablama, quraşdırma, istismar və idarəetmə qaydaları öyrədiləcəkdir.

Onu da qeyd edək ki, laboratoriya bazasının gücləndirilməsi, tələbə və magistrantların nəzəri biliklərlə yanaşı, zəruri praktiki bacarıqlar da qazanması AzMİU-da həmişə diqqət mərkəzində saxlanılır.

**Gülnar FEYZİYEVA,
Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının dosenti.**

## AzMİU ilə Məsaməli beton blokları istehsalçısı "AAC" MMC arasında Əməkdaşlıq memorandumu imzalanıb



Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə Məsaməli beton blokları istehsalçısı "AAC" MMC arasında Əməkdaşlıq memorandumu imzalanıb. Görüşdə universitetin professor-müəllim heyəti ilə yanaşı, şirkətin Baş direktoru Ayaz Əliyev, Kommersiya direktoru Xəyyam Mahmudov, Marketinq direktoru Saday Əlverdiyev də iştirak ediblər.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova qonaqları salamlayaraq tələbələrin əmək bazarına çıxışını təmin etmək üçün universitet-sənaye işbirliyinin inkişaf etdirilməsinin rəhbərlik etdiyi təhsil müəssisəsi üçün prioritet məsələlərdən olduğunu vurğulayıb. Gülçöhrə Məmmədova gələcək əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına dair əminliyini ifadə edib.

Görüşdə iştirak edən İnşaat fakültəsinin dekanı Hikmət Məmmədov və Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması kafedrasının müdiri Sahib Fərzəliyev əməkdaşlığın üstünlüklərini qeyd edərək müqavilənin hər iki qurum arasında əlaqələrin istiqamətini daha da genişləndirəcəyini, həmçinin tələbələrin gələcək karyerasında mühüm rol oynayacağını bildiriblər.

"AAC" MMC-nin Baş direktoru Ayaz Əliyev şirkət olaraq AzMİU ilə əməkdaşlıqda maraqlı olduqlarını, elm ocağının kadrlarının məsləhət və tövsiyələrinə ehtiyac duyduqlarını dilə gətirib. O, səyləri birləşdirərək potensial kadrları üzə çıxarıb yerli bazara və ölkə iqtisadiyyatına töhfə veriləcəyinə əminlik ifadə edib.

Çıxışlardan sonra iki qurum arasında Memorandum imzalanıb.

Məlumat üçün qeyd edək ki, Memorandum təhsil sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsini, təhsil keyfiyyətinin və tələbələrin peşə fəaliyyətinin yaxşılaşdırılmasını, tələbələrin təcrübəyə cəlb edilməsini, şirkət tərəfindən təşkil olunan və ya aparılan yerli və beynəlxalq layihələrdə iştirak etməsini, birgə seminarların, kurs və təlimlərin təşkilini və elmi tədbirlərin keçirilməsini əhatə edir.

**"İnşaatçı kadrlar"**

## Millət vəkili Naqif Həmzəyevlə tələbələrin görüşü



Fevralın 2-də Azərbaycan Memarlıq və İnşaat Universitetində Milli Məclisin deputatı, YAP Təftiş komissiyasının üzvü Naqif Həmzəyevin gənclərlə görüşü keçirilib. AzMİU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə keçirilən görüşdə universitetin tələbələri iştirak ediblər.

AzMİU THİK-in sədri Bayram Aslanov "Azərbaycan gəncliyinin dünəni, bu günü, sabahı" mövzusunda keçirilən görüşü açıq elan edərək dəvəti qəbul edib. 2 Fevral – Gənclər Günündə tələbələrlə görüşə gələn millət vəkilinə təşəkkürünü bildirib. Bayram Aslanov əlamətdar gün münasibətilə tələbələri təbrik edib, onlarla dövlətin gənclər siyasətindən danışıb.

Çıxışına gəncləri təbriklə başlayan milllət vəkili görüş iştirakçılarına dövlətin gənclər siyasəti barədə məlumat verib, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə gənclərə önəm verilməsinə, gənclərə etimad göstərilməsinə diqqət çəkib. Naqif Həmzəyev qeyd edib ki, ölkəmizdə gənclər siyasətinin uğurla həyata keçirilməsində gənclərin üzərinə böyük məsuliyyət düşür. "Adətən cəmiyyətə yenilik onun ən dinamik, çevik, enerjili və novator təbəqəsi olan gənclər tərəfindən gətirilir. Məhz bunun üçün gənclərimiz yeni çağırışlara uyğun şəkildə fəaliyyət göstərməlidirlər. Gənclər də öz növbələrində dövlətin yaratdığı münbit şəraitdən istifadə etməklə həyatda özlərini təsdiq etməli, onlara yaradılan imkanlardan səmərəli faydalanmalıdırlar".

Diskussiya formatında davam edən görüş zamanı gənclər N.Həmzəyevə müxtəlif suallar ünvanlayıblar, məsləhətlər istəyiblər. Görüş iştirakçıları millət vəkili ilə xatirə fotoşəkilləri çəkdiriblər.

**Tacir İSMAYILZADƏ,
İnşaat-texnologiya fakültəsinin III kurs tələbəsi.**

## Tədris prosesinin yaxşılaşdırılması məqsədilə silsilə təcrübə mübadiləsi təlimlərinə start verilib



Azərbaycan Memarlıq və İnşaat Universitetinin Keyfiyyətə Nəzarət Mərkəzinin təşkilatçılığı ilə 2021–2022-ci tədris ilinin yaz sessiyasına hazırlıq məqsədilə fakültələr üzrə silsilə təcrübə mübadiləsi təlimlərinə start verilib. Təlimlərin keçirilməsində məqsəd tədris prosesinin yaxşılaşdırılması, müəllimlərin qabaqcıl təcrübələrinin paylaşılması və digərlərinin faydalanmasından ibarətdir.

İlk təlim Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsində keçirilib. Keyfiyyətə Nəzarət Mərkəzinin müdiri Rövşən Quliyev tədrisin keyfiyyətinin artırılması üçün keçirilən təlimlərin əhəmiyyətindən danışıb. Təlim Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədovun çıxışı ilə davam edib.

Mərkəzdən aldığımız məlumata görə, Memarıq fakültəsinin dekanı Zahidə Məmmədova, İnşaat konstruksiyaları kafedrasının müdiri Müxlis Hacıyev, Nəqliyyat tikintisi və yol hərəkətinin təşkili kafedrasının dosenti İsmayıl Çobanzadə, Materialşünaslıq kafedrasının müdiri İradə Şirinzadə və dosent Emil Qafarov, Sənayenin təşkili və idarə edilməsi kafedrasının dosenti Aydın Nəbiyev, Tərsimi həndəsə və mühəndis qrafikası kafedrasının müdiri Aslan Tağıyev və dosent Rəsul Qardaşov təlimlərdə öz təcrübələrini bölüşüb, tədrisin keyfiyyətli alınması üçün yeni metod və üsulların tətbiqindən danışıb.

Xatırladaq ki, təlimlərin keçirilməsində məqsəd tədris prosesinin yaxşılaşdırılmasından və digərlərinin faydalanmasından ibarətdir.

**Könül AĞAYEVA,
Keyfiyyətə Nəzarət Mərkəzinin müdir müavini.**

# Albanşünas alim Fəridə Məmmədovanın xatirəsinə həsr olunmuş elmi simpozium

Fevralın 25-də Azərbaycan Memarlıq və İnşaat Universitetində Azərbaycan alimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki, Azərbaycanın Əməkdar elm xadimi, Respublikanın Dövlət mükafatı laureatı, "Şöhrət" Ordenli və "Qızıl Qələm" mükafatçısı, tarix elmləri doktoru, professor Fəridə Məmmədovanın xatirəsinə həsr olunmuş onlayn elmi simpozium keçirilib. Simpoziuma Azərbaycanın müxtəlif elm, təhsil müəssisələri ilə yanaşı, müxtəlif ölkələrdən də qonaqlar qoşulub. Tədbir AzMİU-nun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri, Əməkdar memar, professor Səbinə xanım Hacıyevanın moderatorluğu ilə keçirilib.




Simpoziumu giriş nitqi ilə AzMİU-nun rektoru, professor Gülçöhrə xanım Məmmədova açıb tədbir iştirakçılarını salamlayıb. Rektor Azərbaycan tarixi üzrə 200-ə yaxın əsərin, o cümlədən 4 monoqrafiya və kitabın müəllifi olan Fəridə xanımın ömür yoluna nəzər salıb. Onun tarix elminə həsr olunmuş "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası", "Qafqaz Albaniyası və albanlar", "Musa Kalankatlı Qafqaz Albaniyasının ictimai tarixində mənbə kimi" kitablarının elmi ictimaiyyətin dərin rəğbətini qazandığını qeyd edib.

Görkəmli alimin beynəlxalq miqyasda ermənilərin saxtakar əməllərini, saxta tarixlərini ifşa etdiyini deyən Gülçöhrə Məmmədova onun tədqiqatlarına qədər qədim albanşünaslığın ermənişünaslığın bir hissəsi hesab edildiyini xüsusi vurğulayıb. "Məhz onun araşdırmaları sayəsində Qafqaz Albaniyası "Böyük Ermənistanın bir hissəsidir" ideyasına son qoyulub. Görkəmli alim sübut edib ki, Qafqaz Albaniyası həmişə müstəqil dövlət olub, Ermənistan isə əksinə Roma İmperiyasının və İranın tərkib hissəsi olub, heç bir zaman dövlətçiliyi olmayıb".

AMEA-nın Elmi Şurasının direktoru, A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov Fəridə Məmmədovanın xatirəsinə həsr olunmuş simpoziumun AzMİU-da keçirilməsini yüksək qiymətləndirərək universitetin rəhbərliyinə təşəkkürünü bildirib. K.Şükürov tanınmış alimin elmi fəaliyyətinə qısa nəzər salıb, onun Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Azərbaycan Albaniyasında feodalizmin genezisi problemini tədqiq etdiyini xatırladıb. Qeyd edib ki, Fəridə xanım ilk dəfə xristianlığın Albaniyada yayılması, eləcə də alban kilsəsinin yaranma tarixini araşdırıb, onun Qafqazda ən qədim həvari və avtokefal kilsə olmasını sübut edib, ilk dəfə alban hüququnun ən qədim abidəsini Qarabağla bağlı erməni "elmi təcavüzü"nü ifşa və tədqiq edib. "Tarix elmində ilk dəfə Albaniyanın e.ə. IV əsrindən e. VII əsri daxil olmaqla bütöv bir dövrü üçün 6 xəritə tərtib edib, Albaniya dövlətçiliyinin bütün rəmzlərini, Alban Arşakilar sülaləsinin və onları əvəz etmiş böyük knyazlar – Mehranilərin daxili və xarici siyasətini işıqlandırıb. Erməni tarixi coğrafiyasını tədqiq edərək, ermənilərin yalnız iki dəfə, Qafqaz hüdudlarından kənarda, Kiçik Asiyanın iki müxtəlif yerində dövlət qurumunun yaranmasını üzə çıxarıb".

Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının katibi, tarixçi Arximandrit Aleksi də xatirəsinə böyük ehtiram bəslədiyi hörmətli müəllimi ilə bağlı xatirələrini bölüşüb. Onun 2005-ci ildə nəşr edilən "Qafqaz Albaniyası və albanlar" adlanan monoqrafiyasından danışıb, bu əsərdə Qafqaz Albaniyası tarixinin əsas cəhətlərini üzə çıxarmasına, IX–XIX əsrlərin son dövr albanlarının tarixini işıqlandırmasına toxunub.

Simpoziumda çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, AzMİU-nun kafedra müdiri Səbinə Hacıyeva, Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının Volqoqrad İdarəetmə İnstitutunun fəlsəfə və sosiologiya kafedrasının professoru Riçard Danakari, Qafqaz Albaniyasının Mənşəyi Məsələsinə Dair AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Etnoarxeologiya" şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Nəcəf Müseibli görkəmli alimin elmi fəaliyyəti barədə öz fikirlərini bildirib, onun tarix elmi qarşısındakı böyük xidmətlərini bir daha yada salıblar.

**Zahidə MƏMMƏDOVA,**
**Memarlıq fakültəsinin dekanı.**

# İnşaat mühəndisliyi ixtisası üzrə əlavə təhsil alanlara diplomlar verilib



Azərbaycan Memarlıq və İnşaat Universitetində inşaat mühəndisliyi ixtisası üzrə kadrların yenidən hazırlanması kursunda 1 illik proqram əsasında əlavə təhsil alan Maliyyə Nazirliyinin əməkdaşlarına fevralın 2-də diplomlar verilib. Diplomları universitetin rektoru, professor Gülçöhrə Məmmədova təqdim edib.

Müdavimlərlə görüşən rektor onları təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb. Rektor qeyd edib ki, əlavə təhsil müasir şəraitdə hər bir vətəndaşın əmək bazarında yüksək rəqabətqabiliyyətliliyinə malik ola bilməsi üçün fasiləsiz təhsil almaq imkanını təmin edir. Eyni zamanda onun yeni peşələrə, ixtisaslara yiyələnməsi, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsinə xidmət edir.

Gülçöhrə Məmmədova gələcəkdə də ehtiyac olarsa, təhsil müəssisəsi olaraq belə kursların yaradılmasına hazır olduqlarını bildirib.

Məlumat üçün deyək ki, Təhsil Nazirliyinin 06.10.2020-ci il və Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin 04.11.2020-ci il tarixli məktublarına əsasən adıçəkilən qurumun 13 əməkdaşı AzMİU-da İnşaat mühəndisliyi ixtisası üzrə 1 illik əlavə təhsil alıblar. Nazirlər Kabinetinin müvafiq qaydalarına əsasən 23.11.2020-ci ildən əlavə təhsil alan müdavimlərin dərsləri COVID-19 pandemiyası səbəbindən onlayn təşkil olunub. Kursu müvəffəqiyyətlə bitirən müdavimlər sonda buraxılış imtahanları veriblər.

**Sahib FƏRZƏLİYEV,**
**Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması kafedrasının müdiri.**

# Gənc tədqiqatçılar üçün "Open Science Azərbaycan" layihəsinin təqdimatı keçirilib

Azərbaycan Memarlıq və İnşaat Universitetində "Open Science Azərbaycan" layihəsi çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin (AGADMC) birgə dəstəyi ilə "Open Science Azərbaycan: gənc tədqiqatçılar arasında Open Science platformasının təbliği" mövzusunda seminar keçirilib.






Layihənin əsas məqsədi gənc tədqiqatçılara Open Science, Open Access, Open Research Date, Open Innovation, Open Research Computation, ResearchGate, Scientific Social Network haqqında bilik və informasiyalar vermək, Open Access jurnallarına çıxış imkanları, ORCID, indeksli jurnallarda çap olunmaq üçün elmi məqalələrin hazırlanması metodologiyası haqqında məlumatlandırmaq, Open Science-in gənc alimlər arasında geniş yayılmasına nail olmaqdır.

Açılış mərasimində AzMİU-nun Elmi-tədqiqat şöbəsinin müdiri Nərmin Rzayeva çıxış edərək "Open Science Azərbaycan" layihəsi haqqında iştirakçılara məlumat verib. O, çıxışında vurğulayıb ki, layihə gənc tədqiqatçıların xarici həmkarları ilə əlaqələrinin güclənməsinə, elmi araşdırmalarını daha geniş auditoriyalarda təqdim etmələrinə və Avropa elm məkanına inteqrasiya olunmalarına imkan yaradır. "Layihənin məqsədi elmi-tədqiqatların, məlumatların və onların yayılmasının cəmiyyətin bütün maraqlı tərəfləri üçün əlçatan olmasını təmin etməkdir".

Seminarda AGADMC-nin eksperti, fəlsəfə doktoru Sevinc Ədilova da geniş təqdimatla çıxış edib. O, bildirib ki, layihə elmi-tədqiqatların tamamilə şəffaf aparılması təcrübəsini təşviq edir və elmi araşdırmaların nəticələrini hamıya çatdırır, gənc alimlərin məqalələrinin nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunması imkanını yaradır.

Tədbirin sonunda 80-ə yaxın iştirakçıya sertifikatlar təqdim olunub.

**Ülviyyə RƏSULOVA,**
**Elmi-tədqiqat şöbəsinin əməkdaşı.**

# Prezidentin gənclərlə görüşündə iştirak edən tələbəmizin təəssüratları



***Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirilib. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin iştirak etdiyi Forumda Azərbaycan Memarlıq və İnşaat Universiteti Memarlıq fakültəsinin III kurs tələbəsi Leyla Hüseynova da olub. Tədbirdən sonra Leyla ilə görüşüb, forumla bağlı təəssüratlarını bizimlə paylaşmasını istədik.***

**– Leyla, Forumda iştirak edəcəyin barədə xəbəri alanda ilk reaksiyanız necə oldu?**

– Açığını deyim ki, bu barədə məlumat veriləndə özümü çox itirdim, həyəcanlandım. Bir anlıq hislərim qarışdı, xəbərin doğruluğuna şübhə etdim. Çünki belə bir mötəbər görüş üçün universitetdən yalnız mənim seçilməyimi təsəvvür belə edə bilməzdim. Bu universitet rəhbərliyinin, ictimai təşkilatların mənə göstərdiyi böyük etimadın nəticəsi idi. Ölkə Prezidenti ilə görüşmək hər bir gənc üçün çox qürurverici, mən də fəxr etdim ki, mənə belə bir etimad göstərilib.

***– Forumda iştirak etdin, ölkə Prezidenti ilə üz-üzə təmasda oldun, hətta sizlərə dövlət başçısına suallar vermək, hər hansı məsələ ilə bağlı onun tövsiyə və məsləhətlərini dinləmək şansı verildi. Siz Prezidentə hansı sualı vermək istərdiniz və yaxud nə barədə danışardınız?***

– Fəal bir gənc kimi bu günə qədər çox tədbirlərdə, forumlarda, layihələrdə iştirak etmişəm, Universitetimizi təmsil etmişəm. Fəal gənc olaraq belə tədbirlərdə çıxışlar da etmişəm, rəy, təklif və ideya da səsləndirmişəm, forumlarda könüllü kimi xarici qonaqlarla ünsiyyətdə olmuşam. Təbii ki, bu cür ictimai fəaliyyət, sosial ünsiyyət özünü inkişaf etdirmək, yeni bacarıq və vərdişlər qazanmaq, əcnəbi dil biliklərini daha da mükəmməlləşdirmək baxımından çox vacibdir. Bizim üçün bu şəraiti dövlətimiz, onun başçısı, yürütdüyü gənclər siyasəti yaradıb, bu danılmaz həqiqətdir. Prezidentlə görüşdə bax, bu imkanlara görə ilk növbədə ona çoxlu-çoxlu təşəkkür etmək istərdim.

***– Universitetimizin 10 minə yaxın tələbəsi var, bu qədər tələbənin içindən universitet rəhbərliyi məhz səni seçdi, sənin belə bir mötəbər forumda iştirakını təmin etdi. Bu sənə göstərilən böyük etimaddır. Eyni zamanda sənin üzərinə böyük məsuliyyət qoyur.***

– Doğru vurğulayırsınız. Bu seçim qürurverici olduğu qədər, həm də məsuliyyət deməkdir. Mən artıq özüm üçün yeni bir yol xəritəsi seçmişəm, əməlimlə, işim və fəaliyyətimlə Forumun iştirakçısı adını doğrultmalıyam. Bu günə qədər çox tədbirlərdə universitetimizi təmsil etmişəm, həmişə çalışmışam ki, üzərimə düşən vəzifələrin öhdəsindən layiqincə gəlim. Amma bu forumda iştirakım həyatımda yeni səhifə açdı.

***– Prezidentin söhbətlərindən, məsləhət və tövsiyələrindən hansı nəticələri çıxardın? Görüşdən sonra özün üçün yeni hədəflər müəyyənləşdirdinmi?***

– Görüşümüz çox səmimi keçdi, cənab Prezident bizim suallarımıza geniş və ətraflı cavablar verdi, təhsilimiz, tərbiyəmiz, hətta sağlam həyat tərzi sürməyimizlə bağlı dəyərli məsləhətlər aldıq. İdmanla məşğul olmağı, fiziki sağlamlığımızın qayğısına qalmağı, habelə mədəniyyət və dilimizi qorumağı tövsiyə etdi. Bu görüşdən özüm üçün müəyyən nəticələr çıxartdım, bir gənc memar və şəhərsalma mütəxəssisi kimi ölkə başçısının işğaldan azad olunmuş torpaqlarda quruculuq, abadlıq, yenidənqurma işləri ilə bağlı açıqlamaları mənim üçün təkan oldu.

***– Yaşıdlarına, gənclərə nə demək istərdin, hansı fikirlərini bölüşərdin?***

– Fikrimi bir cümlə ilə ifadə etmək istəyirəm, dayanmamaq. Əgər dayansaq, itirəcəyik. Bir çay təsəvvür edin, əsrlərdir ki, öz axarında gedir, dayanmadan axır. Onun ortasında yekə bir daş dayanıb, sağından, solundan sular axıb gedir, amma o tərpənmir. Dünya da belədir, öz işindədir, dayanmır, durmadan inkişaf edir, dəyişir. Biz də insan övladı olaraq bu sonsuzluqda öz yerimizi tapana qədər dayanmamalıyıq, hərəkət etməliyik. Gənc dostlarıma daim inkişafda olmağı, öz üzərlərində çalışmağı, həyat yolunda ruhdan düşməməyi, daim irəli baxmağı məsləhət görərdim.

**Müsahibəni apardı:**
**Nəcibə MİRZƏYEVA.**

---

***Təbrik edirik!**

# Tanınmış iqtisadçı alim



Universitetimizin Sənayenin təşkili və idarə edilməsi kafedrasının dosenti, iqtisad elmləri namizədi Əmirxan Mehralı oğlu Babaşovun bu yaxın günlərdə 75 yaşı tamam olub.

1969-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetini fərqlənmə diplomu ilə başa vuran Əmirxan Babaşov İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun əyani aspiranturasına daxil olmuş, namizədlik dissertasiyasını madafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1991-ci ildə isə ona dosent elmi adı verilmişdir.

O, bir sıra məsul vəzifələrdə, Dövlət Neft və Sənaye Universitetində, Dövlət İqtisad Universitetində, Milli Məclis Aparatının iqtisadi qanunvericilik şöbəsində, iqtisadi siyasət daimi komissiyasında və digər yerlərdə çalışmışdır.

1995-ci ildən Əmirxan müəllim Azərbaycan Memarlıq və İnşaat Universitetində işləyir. Ötən bu illər ərzində o, dərs dediyi qruplarda tələbələrə maraqlı mühazirələr oxumuş, ölkəmizin iqtisadi inkişaf məsələləri ilə bağlı aktual söhbətlər aparmışdır.

2008-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Əmirxan Babaşov "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Kafedramızın professor-müəllim heyəti və tələbə kollektivi adından ölkəmizdə qanunvericilik sahəsində böyük əməyi olan, təcrübəli müəllim Əmirxan Babaşovu 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı, elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq!

**Ruhəngiz ƏLİYEVA,**
**Sənayenin təşkili və idarə edilməsi kafedrasının müdiri.**

---

# Mülki müdafiə qərargahı rəisinin fəaliyyəti barədə universitetimizə razılıq məktubu gəlib



Yanvarın 24-də Yasamal rayonu üzrə Fövqəladə hallar və mülki müdafiə şöbəsi tərəfindən Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovaya universitetimizin Mülki müdafiə qərargahının rəisi Əhməd Abdullayevin 2021-ci ilin yekunlarına əsasən mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində maarifləndirmə aparılmasında göstərdiyi xidmətlərinə görə təşəkkür məktubu göndərilib.

Universitetimizin Mülki müdafiə qərargahının rəisi, polkovnik-leytenant Əhməd Abdullayevi yaxşı fəaliyyətinə görə təbrik edir, gələcək işlərində ona uğurlar arzulayırıq!

**"İnşaatçı kadrlar"**

---

**AzMİU-nun Sərgi salonunda**

# "Xocalı tələbələrin gözü ilə" adlı sərgi təşkil olunub



Azərbaycan Memarlıq və İnşaat Universitetində "Xocalı tələbələrin gözü ilə" adlı rəsm və əl işlərindən ibarət sərgi təşkil olunub. Azərbaycan xalqının tarixində ən faciəli səhifələrdən biri olan Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunan sərginin açılış mərasimində rektorluğun, fakültə dekanları, ictimai təşkilatların nümayəndələri, tələbələr iştirak ediblər.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Nərgiz Abdullayeva 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Xocalı şəhərində yaşayan günahsız azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdiyini, əliyalın insanlarımızı qətlə yetirdiyini xatırladıb. O, Xocalı soyqırımının Azərbaycan tarixinin ən faciəli və dəhşətli səhifələrindən biri kimi qiymətləndirib.

AzMİU rektorunun müşaviri İlham Mərdanov xalqımızın qanyaddaşına əbədi həkk olunan Xocalı soyqırımı zamanı ermənilərin kütləvi terror aktı nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın azərbaycanlı olduqları üçün ağlasığmaz vəhşilik və qəddarlıqla qətlə yetirildiyini, 487 mülki şəxsin ağır yaralandığını və 1275 nəfərin girov götürüldüyünü bildirib. "Xocalı soyqırımını törətməklə ermənilər xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq istəyirdilər. Amma xalqımız mənfur qonşularından qorxmadı, geri çəkilmədi, 30 ildən sonra torpaqlarımızın işğaldan azad edilməsi xalqımızın mübarizə əzminin qırılmadığını bir daha nümayiş etdirdi. Qəhrəman oğullarımız Xocalı soyqırımının qisasını aldı. Bu gün biz qalib xalqın vətəndaşlarıyıq".

Çıxışlardan sonra sərginin rəmzi açılışını bildirən qırmızı lent kəsildi. Tamaşaçılar salona daxil oldular.

Münsiflər heyəti tərəfindən işləri 1-ci yerə layiq görülən tələbələr – Ramazan Məmmədli (TİF), Mehdi Əzimzadə (Memarlıq fakültəsi), Zeynəb Əliyeva (İnşaat kolleci), 2-ci yerə layiq görülən Memarlıq fakültəsinin tələbələri Aytac Vəzirova, Günay Məhərrəmova, 3-cü yerə layiq görülən tələbələr – Sevda Əsgərova (ST və MKS), Valeh Hacıyev (Memarlıq), Aytən Həbibullayeva (İnşaat kolleci) diplomlarla təltif olundular. Sərginin təşkilində göstərdikləri köməyə görə Memarlıq fakültəsinin tələbələri Heydər Əliyev və Aygül Hacıyeva da diplomlarla mükafatlandırıldılar.

Məlumat üçün qeyd edək ki, sərgidə ümumilikdə 53 iş nümayiş olunub. Universitetin Memarlıq, Tikinti-iqtisad və ST və MKS fakültələrində və İnşaat kollecində təhsil alan tələbələrin hazırladıqları işlərdə o gecənin dəhşətli anları, məqamları əks olunub.

**Gülmira MƏMMƏDOVA,**
**AzMİU-nun Tarixi muzeyinin direktoru.**

---

## Allah rəhmət eləsin!

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları İdman Klubunun sabiq dosenti**
**NƏCƏF ÇÖLLÜYEVİN**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Memarlıq və İnşaat Universiteti İdman Klubunun əməkdaşları klubun futbol üzrə məşqçi müəllimi**
**MİRMUSTAFA TALIŞİNSKİNİN**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

---

**Təsisçi:**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**

**Redaktor:**
**Akif HACIYEV**

**Qeydiyyat № 316**
**Qəzet 1983-cü ildən çıxır**

**Ünvanımız:**
**Az1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11**



**E-mail:**
**redaksiya@azmiu.edu.az**
**Telefon: 539-07-28**
**daxili 5-43, 6-08**
**Qəzet "Azərbaycan" nəşriyyatının kompüter mərkəzində səhifələnmiş və ofset üsulu ilə çap olunmuşdur**

**Tiraj 300**
**Sifariş 664**